**Azərbaycanın enerji statistikası sahəsində qabaqcıl təcrübəsi Enerji statistikası üzrə Oslo Qrupunun 7-ci işçi görüşündə müzakirə edilmişdir**

Dövlət Statistika Komitəsinin Keyfiyyətin idarə olunması və informasiya texnologiyaları şöbəsinin müdiri Y.Yusifov və Sənaye və tikinti statistikası şöbəsinin müdir müavini R.Qurbanov BMT-nin Enerji statistikası üzrə Oslo qrupunun Helsinki şəhərində keçirilmiş 7-ci görüşündə iştirak etmişlər. Tədbir hazırlanmaqda olan "Enerji statistikasının aparılmasına dair vəsait"in strukturunun və layihəsinin, bölmələr üzrə əhatə olunan məsələlərin və ölkə təcrübələrinə dair məlumatlara ilkin baxış məqsədilə keçirilmişdir.




Tədbirdə Avstraliya, Azərbaycan, Kanada, Danimarka, Misir, Finlandiya, Qana, İrlandiya, Meksika, Niderland, Norveç, Qətər, Koreya, Rusiya, Cənubi Afrika, İsveç, BƏƏ, Böyük Britaniya, Avrostat, BEA, BMT-dən olmaqla, ümumilikdə 36 nəfər mütəxəssis iştirak etmişdir.

Yeni vəsait konseptual, hüquqi baza və institusional çərçivə, təsnifatlar, məlumat mənbələri və onların toplanması, enerji balansının tərtibi, enerji hesabının qurulması, enerji göstəriciləri, məlumatların keyfiyyəti və metaməlumatlar, məlumatların yayılması mövzularını əhatə etməklə 9 bölmədən ibarətdir. Vəsaitin enerji balansına dair bölməsi üzrə "Azərbaycanın enerji balansının tərtibinə dair təcrübəsi" adlı təqdimat edilmiş, təqdimatda balansın tərtib olunması ilə bağlı həyata keçirilmiş işlər, balansın strukturu və əhatə olunmuş məhsullar, tətbiq olunan hesabat formaları, çevirmə əmsalları haqqında məlumat verilmiş, vəsaitə daxil edilməsi üçün mətnlər, habelə 2011-ci il üzrə ölkə balansı iştirakçıların diqqətinə çatdırılmışdır.

Vəsaitin hazırki versiyasına Azərbaycan təcrübəsinə dair 2 material yerləşdirilmiş, burada ölkəyə dair hüquqi baza, Dövlət Proqramı və enerji statistikasına dair tədbirlər, qəbul edilmiş qərarlar və beynəlxalq tədbirlərdə iştirak, milli statistika sisteminin qlobal qiymətləndirilməsinə dair hesabatdan sitatlar, məlumatların toplanması üçün Komitənin səlahiyyətləri və s. haqqında mətn əlavə edilmişdir.

